

ƏLƏSGƏR TALIBOĞLU

# QAXLA BAĞLI ŞİRİN DUYĞULAR

## *Qax yolunda*

Gecəni diri gözlü açan qatar
yorğun halda,
dolğun halda
sabahın erkən çağında,
vüsalın sorağında
ağır-ağır, asta-asta,
usta-usta...
fit verə-verə
baxışlara şirin təbəssüm,
ürəklərə xoş sevda hörə-hörə...
Qaxda - "Pavilyon"da
daxil olur perona,
dəmir təkərliklər
dəmir yola dirənə-dirənə...
Son nəfəsini,
coşqu və həvəsini
alaraq dayanır.
Bir andaca ətraf
sevinc selinə boyanır...
Qatardan endikdə
Bakının cansıxıcı bürküsündən
qurtaran ürəyim cana gəlir,
şair könlüm şahə qalxır,
mürgü döyən duyğularım
qana gəlir....
Heyrət edirəm
Qax torpağının gözəlliyinə,
başdan başa
yaşıllıqlara bələnmiş özəlliyinə...
Getdiyimiz yol boyu
bizi valeh edir
bar-bəhər dolu meyvə bağları.
Sanki gözlərimiz önündə
var, bərəkət dağları ucalır.
Seyr etdikcə
şair qəlbim bu varlıqdan
güc alır...

Bu torpaqda
işdir birdən yanlışlıq yapıb,
yerdən bir daş qapıb,
hansısa bir ağaca atmış olsan,
başına çuval dolusu
fındıq tökülər, qoz tökülər.
Hansı bir insanını dindirsən,
şirin Qax şivəsində
ürəyinə sevda dolu
atəş tökülər...
köz tökülər...
Yol boyu bu əngin-zəngin
yaşıllıqlara tamaşa edə-edə
qardaşım Hacı Elşadla birlikdə
Qax şəhərinə doğru gedirik
bu aydın səhərdə,
ustad sürücü olan dostum Adilin
ustalıqla yüyənini əlində tutduğu
şümşad asfalt üzərində
sürətlə şütüyən
bəyaz rəngli dəmir kəhərdə...

***12.10.2018***

## *Xəyalımda yaşatdığım şəhər*

İllərdir
həsrətimin suluq atdığı,
içimi içimə qatdığı
Qax şəhəri ilə
durmuşam üz-üzə...
Mən ona baxıram,
o da mənə....
gözlərimi süzə-süzə.
Heyrət kəsir qəlbimi
bu gözəlliyin önündə,
payızın gəlişinin çarçısı olduğu
bir qızdırmalı
sentyabr günündə....
...Kəsişə-kəsişə uzanıb gedən
sağa-sola yollar,
hər gələninə qucaq açan,
gedəninə əl yelləyən
incə yollar, zərif yollar....
Ruhumu oxşayır,
əl çəkir könlümə
bu yolların qırı-qırışığı,
qəlbimə yatır, açır ürəyimi
bu şəhərin gəlinə bənzər
yarı-yaraşığı...
Baxma ki, bu şəhərin
yolları yoxuş-eniş,
gəl ki, meydan sinəli, köksü geniş...
Bu şəhər
necə də xoş sifət,

üzü gülər...gözü gülər...
Bu şəhərin hər tərəfi
bağlı-bağatlı,
igidləri ağ atlı.
Bu şəhərin hər tərəfi
başdan-başa yaşıllıq.
Yol ilə getdiyin zaman
Kiməsə əl etmiş olsan,
kimdənsə nə isə soruşmuş olsan
üstünə könül dolusu
sevgi yağar...
şəfqət yağar...
Bir sözlə,
qəlbimdə "quşatdığım",
xəyallarımda yaşatdığım
şəhərdir bu şəhər - Qax şəhəri...

***15.11.2018***

## *İlisu*

İlk ayaq basdığım andan
quşum qondu İlisuya,
onun varlığını duya-duya...
Baxdım əyninə geydiyi
yaşıl kürkə,
başına qoyduğu yaşıl börkə...
Dəvə-dəvə dağına,
dərin-dərin dərəsinə,
keçilməz bəndinə, bərəsinə
gözlərim tutan yerədək,
könlümə yatan yerədək....
Sıxdım köksümə,
oxşadım qəlbimdə
ulularımızın daş yaddaşı
Ulu körpünü
dünənimə körpü ata-ata...
Oxşadım baxışlarımla
tariximin canı,
qanı olan,
tariximin şanı olan
Sumux qalasını,
gözlərimə bələdim
Qala bürcünü
ürəyimdə yeni sevda çata-çata...
Soluğumu tapdım
Səngər qalasında,
sehr gördüm,
mehr gördüm
hər işvəsində, ədasında...
Açdım qəlbimi,
xoş çağlara açılan
qapı kimi...
Baş vurdum,
Ağçaya,
bənzətdim onu ən dəyərli axçaya...
Ağçayın ağbənizli suyunda
arındıqca arındım,
durdum tamaşasına,
könül dolusu barındım...
Sonra lövbər atdım
Kürmük çayına.
Bulana-bulana
külrəng suyuna...
Mat qaldım bu oyuna...
Kürmük çayının sularında
üzü yuxarı axdım
Sarıbaşa doğru...
Arzu atlı, mənsə piyada idim.
Odur ki....
gedə bilmədim Sarıbaşa.
Sarıbaşlı Rüstəm balamın
gözləri ilə baxdım
o obadaki, o eldəki
hər qayaya, hər daşa....
Kürmük dərəsindən
boylana-boylana,
boy verə-verə baxdım
Ağbulağa, Qızılbulağa, Nohura,
Alagözə, Günaxaya, Çanaxura,
burda buz bulaqların suyunda,
yuduğum əllərimi
hoxura-hoxura...
Gördüyüm hər şeyi
bağrıma basa-basa,
elə Kürmük çayının
sularıyla da geri axdım...
Ruhumu
Sarıbaşın, İlisuyun göylərinin
tavanından aşa-aşa...

***01.12.2018***

## *İlisu şəlaləsinin əksi*

Başı yaşıl çalmalı
uca-uca dağlara
könül verə-verə,
quca-quca
özünü ucalıqlardan atan,
ruhuma yeni bir ruh qatan
qulac-qulac hörüklü
İlisu şəlaləsinin
dayanmışam önündə,
ömrümün ömrümə yazılası
ən xoş günündə:
gözlərimdə
təbəssüm dolu lal heyrət,
içimi çılğınlıqla yalayan bal heyrət...
Baxıram şəlaləyə,
o da baxır mənə -
şair qəlbli bu lələyə...
Baxıram bu dəli qızın
sevdasını ürəyimə təpə-təpə,
qayadan
asılı qalan şəlalə də
könlümə nurunu səpə-səpə...
Sehrini düzə-dizə sapa-ipə...
Baxıram bu şəlaləni
ağuşuna alan dağlara.
dönürəm Dərələyəzdə gördüyüm,
altında saatlarca çimdiyim
boyasını yaddaşıma hördüyüm
o kiçik şəlaləyə,
göynərtisi ürəyimdən bitməyən
uşaq ikən yaşadığım çağlara...
Gözlərimə çəkirəm
İlisu şəlaləsinin əksini,
körükləyə-körükləyə
qabardır köksümü...
Bir ömrə bəs edəcək
tamaşadan sonra
tərk edirəm heyrətamiz
bu şəlaləni.
"Əlvida" deyil,
"hələlik" deyirəm ona,
ruhum girə-girə dondan-dona,
könlümdə
yuvarlandıra-yuvarlandıra
sevdasının selini...

***01.12.2018***

